**UOT 330**

***Zəhraxanım İsa qızı SƏMƏDOVA***
***i.f.d., dos., Bakı Dövlət Universiteti***
***zahra.samad@gmail.com***

# LOGİSTİKA VƏ BEYNƏLXALQ TİCARƏTİN NƏZƏRİ – KONSEPTUAL ƏSASLARI

***Xülasə***

**Tədqiqatın məqsədi** logistika və beynəlxalq ticarəti ayrı-ayrılıqda təhlil etməklə bərabər onların həm də bir-birinə və eyni zamanda ölkələr arasında olan davamlı ticarət əlaqələrinə təsirini də araşdırmaqdan ibarətdir.

**İşin metodologiyası** ondan ibarətdir ki, tədqiqat zamanı tətbiq olunan metodologiya beynəlxalq ticarətlə bağlı olan əsas nəzəriyyələrin və digər nəzəri-elmi biliklərin əsasında onların beynəlxalq ticarətdəki rolunu müqayisə edir və praktiki cəhətdən tətbiq edilə bilmə qabiliyyətlərinin analizini edir.

**Tədqiqatın tətbiqi** əhəmiyyəti ondan ibarətdir ki, logistika vasitəçilərinin əhəmiyyətini vurğulayaraq logistika vasitəçiləri ilə beynəlxalq ticarətin inkişafı arasındakı əlaqənin qurulması ilə bağlı hal-hazırda həyata keçirilən və gələcəkdə də həyata keçirilə biləcək tədqiqatlar üçün zəmin yaratmış olur.

**Tədqiqatın nəticələri** ondan ibarətdir ki, logistikanın beynəlxalq ticarətdəki rolunu və beynəlxalq ticarətin hal-hazırdakı inkişaf aspektlərini təhlil etməyin önəmini dəyərləndirərək logistikanın beynəlxalq ticarətin inkişafında verə biləcəyi töhfəni artırmaq və bu sahədə ticarətin tərəfləri olan ölkələrin iqtisadi inkişafına təkan vermək olar.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** logistika xidməti təminatçılarının fəaliyyətinin və əldə etdikləri təcrübənin müştərilər üçün əhəmiyyətinin vurğulanması, bununla da bazara yeni daxil olmuş logistik xidmət təminatını həyata keçirdən şirkətlərin üzləşə biləcəyi müştəri loyallığı probleminə diqqət çəkməkdən ibarətdir.

***Açar sözlər: logistika, ticarət, beynəlxalq, beynəlxalq ticarət.***

## *Giriş*

Qloballaşma və artan rəqabət qabiliyyəti logistikanı ticarətin əsas elementlərindən birinə çevirdi. Səmərəli logistika xidmətləri məhsulların hərəkətliliyini asanlaşdırır, onların təhlükəsizliyini və sürətini təmin edir, həmçinin ölkələr arasında ticarət zamanı maya dəyərini azaldır. Bir sıra tədqiqatçılar, həmçinin De Souza (2007) logistikanı mənbədən istehlakçıya malların, xidmətlərin və məlumatların səmərəli axınını planlaşdıran, həyata keçirən və nəzarət edən dəyər zəncirinin bir hissəsi kimi müəyyən edir. Nəticə etibarı ilə logistikanın əhəmiyyəti daşıma, saxlama və qablaşdırma məsələlərini səmərəli həll etmək bacarığındadır.

Logistika milli rəqabət qabiliyyətinin ən mühüm elementlərindən biridir. Keyfiyyətli logistik xidmətlər və infrastruktur ölkələr arasında malların daşınmasının asanlaşdırılmasına güclü təsir göstərir. Bunun əksinə olaraq, səmərəsiz logistika vaxt və pul baxımından daha yüksək xərclərlə nəticələnir, ölkələrə və şirkətlərə mənfi təsir göstərir və ya Hausman və digərlərinin ifadə etdyi kimi dövriyyəni azaldır. (2005). OECD (2005) hesab edir ki, logistika xərcləri ümumi dövriyyənin 2%-15%-i arasında dəyişir. Beləliklə, logistika beynəlxalq rəqabətdə mühüm rol oynayır [4. s.16].

Bu kontekstdə təqdiqatçılar mövzunu təhlil edərkən ölkələr arasında davam edən ticarəti çətinləşdirən əsas qeyri-tarif maneələri dəf etmək cəhdini əks etdirən ticarətin asanlaşdırılması tədbirləri üzərində daha çox dayanır. İnkişaf etməkdə olan ölkələrdə bunlar kifayət qədər inkişaf etməmiş, zəif infrastruktur, mürəkkəb gömrük prosedurları və dövlət qurumları arasında həddindən artıq bürokratiya səbəbindən ticarət xərclərinin artmasına səbəb olur və malların sərhədlərdən səmərəli daşınmasına mane olur.

Beynəlxalq ticarətdə logistika da üstünlük təşkil edən fəaliyyətdir. Yüklərin daşınması coğrafi baxımdan böyük məsafələri qət etməyə və sərhədləri aşmağa imkan verir. Beynəlxalq ticarətdə həlledici rol oynayan bir çox ölkə yüksək institusional mürəkkəbliyə səbəb olan transsərhəd daşımalarda iştirak edir.

Daşınma və onunla əlaqəli emal prosesləri beynəlxalq mal axını üçün ən yüksək xərc amillərini təşkil edir. Bu, bu xərcləri aşağı saxlamaq üçün yaxşı nəqliyyat sistemlərinin tətbiqinə ehtiyac olduğunu göstərir. Bir ölkənin logistika infrastrukturuna avtomobil yolları, dəmir yolları və su yollarının nəqliyyat şəbəkəsi daxildir. Dövlət orqanları bu makroiqtisadi logistika sistemlərinə həlledici təsir göstərə və logistika infrastrukturunun keyfiyyətindən asılı olan şirkətlərin uğuruna töhfə verə bilər. Dövlətlər nəqliyyat şəbəkələrinin saxlanmasına lazımi diqqət yetirdiyi zaman təkcə daxili ticarət, yükdaşınmaları və logistikanı deyil, həmçinin ölkənin beynəlxalq ticarətdəki rolunun da inkişafına təkan vermiş olur [8, s. 24].

Beynəlxalq şirkətlər cari bazar tendensiyalarına cavab vermək üçün təchizat zəncirlərini təkmilləşdirmək və tənzimləmək zərurətinin əhəmiyyətinin fərqinə yeni-yeni varırlar. Biznes prosesi bu mənada getdikcə mürəkkəbləşir, çünki bütün fəaliyyətləri təkbaşına idarə etmək getdikcə çətinləşir. Buna görə də, şirkətlər logistika və təchizat zəncirinin idarə edilməsi prosesləri (məsələn, malların satıcıdan alıcıya və ya son istehlakçıya daşınması, saxlanması, daşınması və paylanması və s.) üçün bu sahədə kifayət qədər təcrübəli və etibarlı logistika şirkətlərinə müracət edirlər.

Logistik xidmət təminatçılarının əsas forması, zamanla getdikcə daha çox logistika xidmətləri göstərən və bununla da son məhsula dəyər əlavə edən ekspeditorlardır. Zamanla bunlar üçüncü tərəf logistika və ya hətta dördüncü tərəf logistika təminatçılarına çevrildi. İT inkişafı və beynəlxalq ticarətdə yeni tendensiyalar logistik vasitəçilərin, beşinci tərəf logistika provayderlərinin daha yeni formasının yaranmasına gətirib çıxarır. Bununla belə, bu provayderlər arasındakı fərqlər ədəbiyyatda və iş dünyasında aydın və tam şəkildə izah edilmir [9, s. 41].

Logistika xidmət təminatçıları və vasitəçilər, xüsusən də bugünkü beynəlxalq ticarət şəraitində biznes proseslərində mühüm rol oynayırlar. Logistik xidmət təminatçıları arasında liderliyi əlində tutan şirkətlər öz biznes sahələrində ixtisaslaşmışdırlar və diqqət mərkəzində olan şirkətlərin (müştərilərin) malik olmadığı lazımi təcrübə, bilik və bacarıqlara malikdirlər.

Vasitəçiləri işə götürməklə, yəni logistika və nəqliyyat problemlərini logistika provayderlərinin həllinə buraxmaqla şirkətlər diqqətlərini əsas biznes fəaliyyətlərinə yönəltmək, kapital qoyuluşlarına qənaət etmək, xərclərini və risklərini azaltmaq və səmərəliliyi artırmaq şansına malikdirlər. Logistika ehtiyaclarından, yəni təchizat zəncirinin mürəkkəbliyindən asılı olaraq, hər bir şirkət hansı növ logistika provayderinin daha uyğun olduğuna qərar verirlər. Onların qərarı ehtiyac duyulan xidmətlərin həcminə, yəni malların yalnız daşınmasına və yaxud anbarına (3PL və ya ekspeditor) və ya bütün təchizat zəncirinin dizaynına (4PL) ehtiyac olub-olmamasına əsaslanır [11, s. 80].

**Beynəlxalq ticarətin müasir nəzəri əsasları**

Beynəlxalq ticarət sənayeləşmə və qloballaşma ilə birlikdə genişləndirilmiş beynəlxalq iqtisadi əlaqələr nəticəsində günümüz iqtisadiyyatının ayrılmaz bir parçasına çevrilmişdir. Buna görədir ki, tarixən zəif olan və daha çox zəhmət tələb edən beynəlxalq ticarət haqqında nəzəri biliklər də son zamanlarda daha çox inkişaf etmiş və öz praktiki əhəmiyyətini sübut edə bilənlər istifadə olunmuşdur.

*Klassik ticarət nəzəriyyəsinə* görə proteksionist siyasətə əsaslanan iqtisadiyyatın azad ticarətə keçməsi ölkə üçün əhəmiyyətli iqtisadi qazanclar verir. Çünki ticarət edən ölkələr ixtisaslaşmadan və daha səmərəli resurs bölgüsündən faydalanmış olurlar. Ümumiyyətlə, ticarətin istehsal imkanlarına təsiri:

- Beynəlxalq investisiyalar;
- Yeni texnologiya və bacarıqların ötürülməsi;
- İqtisadiyyatın miqyasının genişlənməsi;
- Yüksək məhsuldarlığın əldə olunması;

- Beynəlxalq təcrübə mübadiləsinin intensivləşməsi;
- İxtisaslaşma sayəsində ayrı-ayrı ölkə iqtisadiyyatlarının sürətli böyüməsi;
- Lazımi resurs və ehtiyatlara sahib olmadığı istehsal sahələrindən əldə olunan məhsulların daha ucuz qiymətə idxalı vasitəsilə yerli tələbatın ödənilməsi və bunun da dəstəyilə ölkə iqtisadiyyatı üçün əlverişli hesab edilən məhsul və xidmətlərin istehsalında ixtisaslaşması.

Ticarəti həyata keçirdən tərəflər arasında investisiya qoyuluşlarının artması ilə yerli istehsalın güclənməsinə təkan verilməsi və s. bu kimi məsələlər də özünü göstərməkdədir.

*Adam Smit* təklif edir ki, beynəlxalq ticarət - bazarların ölçüsünü artırmaqla iqtisadi artımda mühüm rol oynayır və hər bir ölkəyə əmək bölgüsü və ixtisaslaşma əsasında həcmcə artan gəlirlərdən istifadə etmək imkanı təklif edir.

*David Ricardo* daha çox ölkəni müqayisəli üstünlüyə malik olan əmtəələrin istehsalında ixtisaslaşmağa vadar edən istehsal texnologiyaları fərqlərinə diqqət yetirir və miqyasda artan gəlirlərin zəruri olmadığını, lakin hər bir istehsal prosesində miqyasda daimi gəlirlərin lazım ola biləcəyini vurğulayır. Bununla belə, həm Smit, həm də Rikardo bir məsələdə razılaşırlar, o da ticarətlə, ölkənin digər ölkələrlə müqayisədə nisbətən daha ucuz istehsal edə biləcəyi əmtəənin istehsalında ixtisaslaşma; o zaman hər bir ölkə, müəyyən miqdarda resursla, ticarət olmadan edə biləcəyindən daha çox istehlak edə bilər. Başqa sözlə, ölkənin istehsal etdiyi hər bir əmtəənin kəmiyyəti onun faktor imkanlarından və istehsal texnologiyasından asılıdır. Nə qədər ki, bu iki nisbət fərqlidir, hər bir ölkə əmtəələrdən birinin istehsalında müqayisəli üstünlüyə malikdir.

*Heckscher-Ohlin nəzəriyyəsi* ölkənin ixracının kapitalın həcmindən daha çox resurslarının bolluğundan asılı olduğunu vurğulayır. O qeyd edir ki, əgər kpaital bol olarsa bu halda ölkə kapital tutumlu məhsul və xidmətləri digər ölkələr ilə müqayisədə nisbətən daha ucuz istehsal edərək ixrac imaknını qazanacaqdır. Eyni tendensiya işçi qüvvəsi bol olan ölkələr üçün də keçərlidir. Belə ki, onlar da əmək tutumlu malları nisbətən daha ucuz istehsal edərək ixrac edə biləcəkdir. Yəni burada əsas məsələ resurs yönümlü ixrac siyasəti yürüdə bilməkdir. Bunun üçünsə ölkələr öz potensialına uyğun istehsal və ixrac məhsullarını seçməli və həmin sahələrdə ixtisaslaşa bilmək üçün resurslardan səmərəli istifadə edə bilməlidirlər, yəni istehsalı optimallaşdırmalıdırlar. Heckscher-Ohlin nəzəriyyəsinin təhlili zamanı əksər hallarda 6 fərziyyə irəli sürülür:

- Nəqliyyat xərclərinin və ticarət maneələrinin aradan qaldırılması;
- Əmtəə və xidmətlərin satışı bazarında mükəmməl rəqabətin təmin olunması;
- Bütün istehsal faktorları nəzərə alınmalıdır;
- İstehsal funksiyaları iki əmtəənin həmişə müxtəlif faktor intensivliyi göstərməsinə səbəb olur;
- İstehsal funksiyaları əmtəələr üzrə fərqlənsə də ölkələr üzrə oxşardır;
- Zövqlər fərdlər üzrə fərqlilik göstərsə də əksər ölkələrdə oxşar tendensiya hakimdir, xüsusən də həyat üçün əhəmiyyətliliyi yüksək olan məshul və xidmətlərdə və strateji məhsullarda.

*Stolper-Samuelson Nəzəriyyəsinə* əsasən məhsulun qiymətindəki artım həmin məhsulun istehsalı ilə məşğul olan sənayedə intensiv istifadə olunan faktor qiymətlərinin artmına səbəb olur. Və eyni zamanda həmin sənayedə olan digər faktorların qiymətini azaldacaqdır [3, s.94].

*Ezeala Harrisona* görə yeni ticarət nəzəriyyəsi (New Trade Theory – NTT ) yeni böyümə nəzəriyyəsindən irəli gəlir. Yeni böyümə nəzəriyyəsi iqtisadi artımı təmin edən bir sıra amilləri vurğulayır ki, onları aşağıdakı kimi vermək olar:

- Texnoloji inkişaf;
- Texnoloji inkişafın determinantları;
- Yeni bilik və bacarıqların tətbiqi;
- Təhsilin inkişafı;
- İnnovativ yeniliklərə açıqlıq.

Beynəlxalq ticarət zamanı bəzi ölkələr *Proteksionist* siyasət yeridirlər. Proteksionist siyasət yeridən ölkələrin əsas məqsədi isə daxili bazarda yerli istehsal məhsullarının satışını artırmaq və ümumilikdə idxal məhsullarından asılılığı aradan qaldırmaqdır. İndi isə həmin prosesin necə

getdiyinə nəzər salaq:

- İdxal məhsulları ölkəyə daxil olan zaman tətbiq olunan gömrük rüsumlarının miqdarı artırılır;
- İdxal məhsullarına tətbiq olunan əlavələr həmin məhsulların ölkə daxilindəki satış qiymətini artırır və belə olan halda istehlakçılar həmin məhsul və xidmətlər üçün yerli alternativlərin axtarışına çıxmış olur;
- Yerli istehsalı təşviq etmək üçün sahibkarlara və biznes fəaliyyəti ilə məşğul olanlara xüsusi subsidiyalar verilir və ya vergi ödəmələri zamanı güzəştlər edilir, beləliklə də xərcləri azalan sahibkar və biznesmenlər üçün istehsala daha çox maliyyə yatırımı etmək imkanı yaranır;
- Satış və gəlirləri artdıqca istehsal olunan məhsul və xidmətlərin kəmiyyət və keyfiyyətində də artım müşahidə olunur;
- Bir istehsal sahəsində baş verən bu dəyişiklik düzgün idarə olunduqda əlaqəli məhsul və xidmətləri təklif edən digər istehsal sahələrinə də təsir göstərmiş olur;
- Eyni zamanda həmin istehsal sahəsi üzrə yerli kadrların yertişməsinə və həmin sahədə yerli istehsal təcrübələrinin formalaşmasına səbəb olmuş olur.

Lakin proteksionizmin ölkə iqtisadiyyatı üçün mənfi sayıla biləcək tərəfləri də mövcuddur və vaxtında müdaxilə edilmədikdə ciddi böhranlara səbəb ola bilər [9, s.32]. Həmin mənfi cəhətlərə nəzər salaq:

- Beynəlxalq iqtisadi əlaqələrin zəifləməsinə səbəb olur;
- Ölkə daxilindəki biznes sahələrinə qoyula biləcək investisiyanın qarşısını alma təhlükəsi mövcuddur;
- Beynəlxalq təcrübənin çatışmazlığı yerli istehsalın inkişafına da əngəllər törədə bilər;
- Monopoliyalaşmanın yaranmasına səbəb ola bilər;
- Beynəlxalq ticarətdə əvvəllər əldə edilə bilən tərəflər arasındakı güzəştdən məhrum olunur.

**Azad Ticarət Zonası**

1944-cü il tarixli Tariflər və Ticarət haqqında Baş Sazişin XXIV maddəsinə uyğun olaraq Azad Ticarət Zonası (bundan sonra - FTA) dedikdə, ticarətin rüsumların və digər məhdudlaşdırıcı qaydaların tətbiq olunduğu iki və ya daha çox gömrük ərazisindən ibarət qrup başa düşülür. Azad Ticarət Zonasına daxil olan ölkələr arasındakı ticarət zamanı qoyulan əngəl, əlavə rüsumlar ləğv edilir (bəzi istisnalar olmaqla).

Bu cür sazişlər Ümumdünya Ticarət Təşkilatı tərəfindən müəyyən edilmiş, bütün ÜTT üzvlərinin bir-birinə ayrı-seçkilikdən kənar vahid rejimi təqdim etməli olduğu ən əlverişli idarəetmə rejimindən ibarətdir. ÜTT – FTA sazişlərinin bağlanmasına mane olmur, bir şərtlə ki, bu cür sazişlər azad ticarəti təşviq etsin və onun üzvləri ilə üçüncü ölkələr arasında ticarəti məhdudlaşdırmasın [1, s. 57].

Bu gün FTA regional inteqrasiyanın ən geniş yayılmış formasıdır. Məsələn, Ümumdünya Ticarət Təşkilatına (ÜTT) bildirilmiş qüvvədə olan regional ticarət sazişlərinin 84 faizi FTA sazişləridir. Bu tendensiya olduqca sadə izah edilə bilər. Belə sazişi imzalamaq üçün milli qanunvericiliyin və ya tariflərin uyğunlaşdırılmasına ehtiyac yoxdur, tərəfdaşların coğrafi yaxınlığı da vacib deyil və s.

Eyni zamanda, FTA sazişləri strateji bazarlara çıxışı tənzimləyir. Bu o deməkdir ki, onlar iqtisadi sektorların lazımi səviyyədə inteqrasiyasına imkan verir, eyni zamanda bu ölkələrin suverenliyinin maksimum dərəcədə qorunub saxlanmasını təmin edir və maksimum səy göstərirlər.

Müvafiq tədqiqatların nəticələri göstərir ki, FTA sazişlərinin sayı ildən-ilə artmağa meyillidir. Bunu statistika sübut edir: 1995-ci ilə qədər 124 belə saziş ÜTT-yə bildirilmişdir. 15 yanvar 2012-ci il tarixinə Ümumdünya Ticarət Təşkilatı 319 FTA sazişini qüvvədə saxlayır [5, s.61].

Beləliklə, FTA sazişi Avrasiya İqtisadi Komissiyası haqqında 18 noyabr 2011-ci il tarixli Sazişə uyğun olaraq Avrasiya İqtisadi Komissiyası (AİK) tərəfindən idarə olunan mühüm ticarət siyasəti alətidir və bu, AET-ə üçüncü ölkələrə münasibətdə ticarətin qurulması üzrə fəaliyyətini həyata keçirmək hüququ verir.

**Logistika və Beynəlxalq ticarətin ümumi təsviri**

Logistika, malların vaxtında və yaxşı formada çatdırılması üçün təchizat və daşımaların idarə edilməsidir. əməliyyatların idarə edilməsi logistika sənayesinin bir hissəsidir və müasir rəqabətli dünyada səmərəli və ucuz əməliyyatların yerinə yetirilməsi zərurəti böyük əhəmiyyət kəsb edir.

Logistikanın idarə edilməsi ticarətin yaxşılaşdırılması üçün əhəmiyyətli ola bilər. Ticarət logistikası ilə bağlı dövlət siyasəti mühüm əhəmiyyət kəsb edir, çünki logistikanın səmərəliliyi düzgün hazırlanmış hökumət siyasətindən asılıdır. Effektiv ticarət logistikası həm də dövlət tənzimləmələri, firma səviyyəsində inzibati və əməliyyat prosedurları, təchizat zəncirləri və malların daxilə və xaricə hərəkəti üçün milli ticarət prosedurları kimi logistikanın institusional aspektləri ilə bağlıdır. Son iki onillikdə müşahidə edilən beynəlxalq ticarət həcmlərinin sürətli genişlənməsi həm də çətin, bahalı və vaxt aparan ticarət kimi əməliyyat bürokratiyasının nizama salınmasını tələb edir [7, s. 98].

Mürəkkəb ticarət-inzibati prosedurları daha çox səmərəsizliyə səbəb ola biləcək korrupsiyanın yaranması üçün lazım olan şəraiti yaradaraq işin effektivliyini aşağı sala bilər.

İdarəetmənin zəif olduğu və ticarət əməliyyatlarını və prosedurlarını tənzimləyən qurumların qeyri-səmərəli olduğu ölkələrdə treyderlər gömrük işçiləri kimi dövlət sektoru işçiləri ilə münasibətdə əhəmiyyətli çətinliklərlə üzləşə bilərlər. Onlar vaxt aparan yoxlama prosedurları (malların rəsmiləşdirilməsi üçün lazımsız imzaların tələb olunması) vasitəsilə gömrük rəsmiləşdirilməsini çətinləşdirə bilər.

Bazar strukturu həm də logistik xidmətləri çətinləşdirə bilər və əməliyyat səmərəliliyinin yüksəldilməsi yolunda maneə rolunu oynaya bilər. Rəqabətli logistika xidmətləri olmadıqda bütün əməliyyatların şirkətin özü tərəfindən həyata keçirilməsi (xərcləri azaltmaq məqsədilə) treyderlər üçün daha yüksək xərclərə çevrilir, çünki logistika xidmətlərinin göstərilməsi sahəsində rəqabət qabiliyyəti logistika xidmətinə tələbatın az olması səbəbi ilə monopoliyalaşdırıla bilər.

**Vasitəçilərin logistika və ticarətdə rolu**

Alıcıların, satıcıların, idxalçıların və ixracatçıların və ya beynəlxalq mal və ya xidmətlərin mübadiləsinə ehtiyacı olan hər hansı digər iştirakçıların razılaşa bilmədiyi və ya razılığa gələ bilmədiyi və işlərin nəzarətdən çıxdığı vəziyyətlərdə vasitəçilər çox faydalıdır. Vasitəçilər daha sonra onlar arasında müəyyən bir əlaqə növü kimi çıxış edirlər [8, s. 77].

Logistika vasitəçiləri şirkətlər adından malların və xidmətlərin istehsalçılardan son istehlakçılara daşınmasını, saxlanmasını, paylanmasını təşkil edən tərəflərdir. Logistika xidmət təminatçıları (Logistic Service Providers -LSP) şirkətin məhsullarına əlavə dəyər verir. Onlar mümkün riskləri minimuma endirməklə yanaşı, göndərmə xidmətlərini yerinə yetirməkdə təcrübəyə malikdirlər. LSP-lər şirkətin təchizat zəncirində mühüm rola malikdirlər, çünki onlar təchizat zənciri üçün lazım olan bütün müvafiq məlumatları əldə etmiş olurlar. Şirkətlər öz təcrübə səviyyələrinə əmin olmalıdırlar.

## *Nəticə*

Yerli bazarlardakı rəqabət qabiliyyətinin son zamanlardakı həlledici ünsürlərindən birinə çevrilən logistika eyni zamanda beynəlxalq ticarətin inkişafında xüsusi yer tutmaqdadır. Səmərəli logistik xidmətin tətbiqi sayəsində məhsullar daha az itki, xarabolma, sınma, qırılma, əzilmə və s. bu kimi problemlərlə üzləşdiyi üçün məhsulun satışı zamanı dəyərinin artmasına da gətirib çıxarda bilər.

Keyfiyyətli logistika xidmətlərinin təklifi ölkədə logistika xidmətlərini həyata keçirtmək üçün vacib olan infrastrukturun olması ilə də əlaqəlidir. Logistika şirkətinin yerləşdiyi ərazinin ticarət üçün nə dərəcədə əhəmiyyətli olması təklif olunan logistka xidmətlərinin keyfiyyətinə təsir göstərən əsas amillərdən hesab olunur.

Beynəlxalq ticarətdə logistikanın əhəmiyyəti danılmazdır və xüsusilə də son zamanlarda qloballaşmanın sürətlənməsi ilə də bu fəaliyyət növü xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Beynəlxalq ticarətdə həlledici rol oynayan bir çox ölkə yüksək institusional mürəkkəbliyə səbəb olan

transsərhəd daşımalarda iştirak edir. Yüklərin daşınması, qəbulu, saxlanması eyni zamanda yüksək infrastrukturlu nəqliyyat yollarının da qurulmasını tələb edir.

Nəqliyyatın önəmi məhsulların vaxtında, xarab olmadan mənzil başına çatdırılmasında özünü göstərir. Eyni zamanda nəqliyyat yollarının kəsişməsində yerləşməsi həmin ərazilərdə yerləşən logistika xidmətlərinin təminatı fəaliyyəti ilə məşğul olan şirkətlərin praktiki təcrübə qazanmasına da kömək edir.

## ƏDƏBİYYAT

1. Importance of the logistics performance index in international trade, L. Martí, R. Puertasb and L. Garcíac, Grupo de Economía Internacional. Universidad Politécnica de Valencia.Camino de Vera s/n 46022 Valencia, Grupo de Economía Internacional. Universidad Politécnica de Valencia, Camino de Vera s/n 46022 Valencia, Instituto de Economía Internacional. Universidad de Valencia. Avd. Tarongers s/n 46022 Valencia
2. American Journal of Economics, Finance and Management, Vol. 1, No. 6, 2015, pp. 604-614 http://www.aiscience.org/journal/ajefm
3. Barro, R. J. 1993, *Macroeconomics*, 4th edn, John Wiley & Sons, New York.
4. Brown, S. J., Coulson, N. E., and Engle, R.F. 1992, 'On the Determinants of Regional Base and Regional Base Multipliers', *Regional Science and Urban Economics*, vol. 22, pp. 619-35.
5. http://www.eurasiancommission.org/en/act/trade/dotp/sogl_torg/Pages/default.aspx
6. Anderson, J. E. and Marcouiller, D. (2002). "Insecurity and the pattern of trade: an empirical investigation", *Review of Economics and Statistics*, Vol. 84, No. 2, pp. 342-52.
7. Banga, R. (2014). "Linking into global value chains is not sufficient: do you export domestic value-added contents"? *Journal of Economic Integration,* Vol. 29, pp. 267-297.
8. Djankov, S., Freund, C. and Pham, S. (2006). "*Trading on time*", Working paper No. 3909, The World Bank, Washington, DC.
9. Baluch, I. (2006). The Changing Role of Freight Forwarders, [available at: www.elleryfreight.co.nz/files/links_sources/baluch_freightorward_role.pdf, access May 3, 2016]
10. Hickson, A., Wirth, B. & Morales, G. (2008). *Supply Chain Intermediaries Study,* University of Manitoba Transport Institute, [available at: https://umanitoba.ca/faculties/management/ti/media/docs/scIntermediariesfinalwithcover(1).pdf, access May 3, 2016]
11. Verhetsel, A., Kessels, R., Goos, P., Zijlstra, T., Blomme, N., Cant, J. (2015),"Location of logistics companies: a stated preference study to disentangle the impact of accessibility", *Journal of Transport Geography*, Vol. 42, pp. 110–121.
12. Portugal-Perez, A. and Wilson, J.S. (2010) Export Performance and Trade Facilitation Reform, Policy Research Working Paper 5261 April.

***Захраханум Иса Самадова***
***канд. эконом. наук, доцент, Бакинский***
***Государственный Университет***
***zahra.samad@gmail.com***

## Теория и концептуальные основы логистика и международная торговля

***Резюме***

**Цель исследования** состоит в том, чтобы проанализировать логистику и международную торговлю отдельно, а также изучить их влияние друг на друга, и в то же время исследовать влияние этого воздействия на устойчивые торговые отношения между странами.

**Методология работы** заключается в том, что методология, примененная в ходе исследования, сравнивает роль основных теорий и других теоретико-научных знаний, связанных с международной торговлей, и анализирует их практическую применимость.

**Прикладное значение исследования** заключается в том, что оно закладывает основу для текущих и будущих исследований взаимосвязи между логистическими посредниками и развитием международной торговли, подчеркивая важность логистических посредников.

**Результаты исследования** заключаются в том, что, оценивая роль логистики в международной торговле и важность анализа текущих аспектов развития международной торговли, можно увеличить вклад, который логистика может внести в развитие международной торговли, и тем самым повысить экономическое развитие стран, являющихся участниками торговли.

**Оригинальность и научная новизна исследования** заключается в подчеркивании важности деятельности поставщиков логистических услуг и полученного ими опыта для клиентов, тем самым обращая внимание на проблему лояльности клиентов, с которой могут столкнуться компании, осуществляющие оказание логистических услуг, имеющие недавно вышел на рынок.

***Ключевые слова: логистика, торговля, международная, международная торговля.***

***Zahrakhanum Isa Samadova***
***PhD, assoc. prof., Baku State University***
***zahra.samad@gmail.com***

**Theory and conceptual basics of logistics and international trade**

***Summary***

**The purpose of the study** is to analyze logistics and international trade separately, as well as to examine their impact on each other, and at the same time to investigate the impact of this impact on sustainable trade relations between countries.

**The methodology of the work** is that the methodology applied during the research compares the role of the main theories and other theoretical-scientific knowledge related to international trade and analyzes their practical applicability.

**The applied significance of the study** is that it lays the groundwork for current and future research on the relationship between logistics intermediaries and international trade development, highlighting the importance of logistics intermediaries.

**The results of the study** are that by evaluating the role of logistics in international trade and the importance of analyzing the current development aspects of international trade, it is possible to increase the contribution that logistics can make to the development of international trade and thus to boost the economic development of the countries that are parties to the trade.

**The originality and scientific innovation of the research** consists in emphasizing the importance of the activities of logistics service providers and the experience they have gained for customers, thereby drawing attention to the customer loyalty problem that may be faced by companies that implement logistics service provision that have recently entered the market.

***Keywords: logistics, trade, international, international trade***